Azərbaycan
TEXNİKİ
Universiteti

## Azərbaycan Texniki Universitetinin

# GENDER BƏRABƏRLİYİ
# SİYASƏTİ

Bakı 2023

## Ön söz

Azərbaycan Texniki Universiteti (AzTU) Azərbaycan Respublikasının texniki təhsil sahəsində aparıcı, intellektual və kadr potensialı yüksək universitetlərindən biridir. Əsası 1950-ci ildə qoyulan universitetdə tədris Azərbaycan, rus və ingilis dillərində aparılır. Professor-müəllim heyəti 568 nəfər təşkil edir. 7 fakültədə bakalavriat səviyyəsində 36, magistratura səviyyəsində 35 ixtisas üzrə 10000-dən çox tələbə təhsil alır. Dünyanın 10 ölkəsindən 200-ə yaxın əcnəbi tələbəsi var. Universitetin nəzdində 2 kollec: Bakı Texniki Kolleci, Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci, eyni zamanda 7 institut, AzTU Beynəlxalq Biznes Məktəbi, tərkibində 2,5 milyondan çox kitab fondu olan elmi kitabxana, Yaponiyada istehsal olunmuş müasir tipli rizoqraf və digər çap avadanlıqları olan nəşriyyat, 6 muzey, İnformasiya və Tərcümə Mərkəzi, idman-sağlamlıq kompleksi, müdafiə sənayesi üzrə kafedra, poliklinika fəaliyyət göstərir.

1930-cu ildə Azərbaycan Politexnik İnstitutu "İttifaq Neft"ə tabe olduğundan Azərbaycan Neft İnstitutu adlandırılıb. Azərbaycan Politexnik İnstitutunun tərkibində olan Kənd təsərrüfatı" və İnşaat-mühəndis fakültələrinin bazasında 1929-cu ildə Gəncə şəhərində Kənd təssərufatı, 1932-ci ildə isə Bakı şəhərində İnşaat institutları yaradılıb.

1934-cü ilin yanvar ayında Azərbaycan Neft İnstitutu ilə İnşaat İnstitutu birləşdirilərək Azərbaycan Sənaye İnstitutu adlandırılıb. Azərbaycan Sənaye İnstitutunun tərkibində Memarlıq-inşaat, Neft-mexanika, Energetika, Neft-mədən, Dəmir yolu və Mühəndis-iqtisadiyyat fakültələri olub.

Azərbaycan Sənaye İnstitutunda əsasən neft sahəsi üçün mühəndis kadrların hazırlanması, İkinci Dünya Müharibəsindən sonra xalq təsərrüfatının bütün sahələrinin bərpası, inkişafı, yeni sənaye müəssisələrinin açılmasının vacibliyi, müxtəlif sahələr üzrə mühəndis kadrlarının hazırlanmasına olan ehtiyac və Azərbaycanda müəyyən intellektual texniki potensialın olması Azərbaycan Politexnik İnstitutunun bərpa olunmasına imkan verdi.

Azərbaycan Respublikasının texniki təhsil sahəsində aparıcı universitetlərindən biri olan indiki Azərbaycan Texniki Universiteti (AzTU) 1950-ci ilin noyabrında Bakı şəhərində tərkibində Mexanika, İnşaat, Dəmir yolu və Hidromeliorasiya fakültələri olmaqla Azərbaycan Politexnik İnstitutu (AzPİ) adı altında yenidən yaradılıb.

Gender bərabərliyi AzTU-nun strategiyasının əsas komponentlərindəndir. Biz universitetimizdə müəllim və tələbələrin cinsi mənsubiyyətlərindən asılı olmayaraq tədris və təhsil prosesinin onların həyatına müsbət mənada töhfə verməsinin təmin edilməsinə

cavabdehik. Universitet bütün qadın və kişi tələbələri üçün bilik və bacarıqlara bərabər çıxış imkanını yaradır. Universitet qadın və kişi heyətinin (əməkdaş və tələbələr) bərabər hesab edilməsini, ləyaqət və hüquqi nöqteyi nəzərdən bərabər rəftar edilməsini təmin edir.

## Giriş

Respublikamızda gender probleminin həll edilməsi üçün müxtəlif tədbirlər həyata keçirilməkdədir. Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra qadınların hüquq azadlıqlarının müdafiəsi sahəsində təmin edilməsində, cinsi ayrı-seçkiliyə son qoyulmasında, məişət zorakılığı ilə mübarizədə böyük nailiyyətlərə imza atıb. Azərbaycan Respublikasının Konstitusiyasında kişi və qadınlara bərabər hüquq və imkanların təmin edilməsi bu istiqamətdə atılmış ən böyük addımlardan biridir. Kişi və qadınları siyasi, iqtisadi, sosial, mədəni və ictimai həyatın digər sahələrində bərabər imkanlarla təmin edən, gender əsaslı ayrı-seçkiliyin aradan qaldırılmasının vacibliyini özündə əks etdirən “Gender (kişi və qadın) bərabərliyinin təminatları haqqında” Qanun 2006-cı il oktyabrın 10-da Azərbaycan Prezidenti tərəfindən imzalanıb və 2011-ci ilin may ayında Milli Məclis Aparatı rəhbərinin xidmətində Gender məsələləri sektoru yaradıldı. Sektor gender bərabərliyi sahəsində qanunlar toplusu hazırladı və bərabər imkanların yaradılması üçün müvafiq dövlət qurumlarına təqdim etdi. Hər bir sahədə olduğu kimi gender bərabərliyində də dövlətin dəstəyi ilə nailiyyətlər əldə olunub və bu nailiyyətlərin daha da artırılması üçün biz əlimizdən gələni etməliyik.

## Əsas

Bir sistem kimi gender siyasəti də öz qanunauyğunluqları və prinsipləri ilə cəmiyyətdə yerini müəyyən etmək və özünü reallaşdırmaqdadır. Günü-gündən genişlənən əhatəli şəbəkə halını alan sistem gender bərabərliyinin qorunması prosesinin səmərəliliyinin artırılmasına öz töhfələrini verə bilər. Bir siyasət kimi özündə qanunauyğunluq müəyyən şəraitlərdə obyektiv, əhəmiyyətli, zəruri, ümumi, sabit və təkrar olunan qarşılıqlı əlaqələri əks etdirir. Hər bir xalqı digər xalqlardan fərqləndirən ən ümdə cəhətlərdən biri olan milli xüsusiyyətlər, onun milli mentaliteti həmin xalqın özünəməxsus adət-ənənəsində, milli-mənəvi dəyərlərində, ailədaxili münasibətlərində, qadın və kişiyə verilən davranış etalonlarında öz əksini tapır. Bu baxımından Azərbaycan xalqının ümummilli lideri H. Əliyevin fikri tam yerinə düşür: "Hər xalqın öz adət-ənənəsi var, öz milli-mənəvi və dini dəyərləri var. Biz öz milli-mənəvi dəyərlərimizlə, öz dini dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik. Bir ali təhsil müəssisəsi olaraq AzTU sosial ədalətə töhfə verməkdə öz rolunu layiqincə yerinə yetirməkdədir.

## SİYASƏTİN ƏHATƏ DAİRƏSİ

### (Əməkdaşlar üçün)

a. İşə qəbul və yüksəliş
b. İşin şərtləri və şəraitləri
c. Peşəkar inkişaf
d. İş saatları
e. Təhlükəsiz iş mühiti
f. Rəhbərlik və idarəetmə
g. Şikayətlər, intizam tədbirləri və əmək müqaviləsinə xitam verilməsi.

## SİYASƏTİN ƏHATƏ DAİRƏSİ

### (Tələbələr üçün)

a. Təhlükəsiz təhsil mühiti
b. Tələbələr üçün bərabər imkanlar
c. Şikayətlər, intizam tədbirləri

## SİYASƏTİN ƏSAS PRİNSİPLƏRİ

Əməkdaşlar üçün

1. AzTU-nun əməkdaşları cinsindən asılı olmayaraq bərabər mükafatlar, resurslar və imkanlardan istifadə edə bilir.
2. AzTU-da bütün işçilər üçün cinsi mənsubiyyətdən asılı olmayaraq hörmət və ləyaqətlə rəftar edildiyi iş mühiti mövcuddur və potensiallarını reallaşdırılmasında, işlərinə qiymət verilməsində və dəyərləndirilməsində eyni yanaşma tədbiq olunur.
3. Universitetdə qadınların və kişilərin karyeralarını inkişaf etdirmək və yüksəltmək məqsədilə bərabər şans əldə etmələri təmin olunur və rifah halının yüksəldilməsi və iş şəraitlərinin yaxşılaşdırılması üçün yerinə yetirdiyi tədbirlər zamanı cinsi oriyentasiyaya görə ayrı-seçkiliyə yol vermir.
4. Universitet cinsindən asılı olmayaraq əməkdaşların iş şəraitinin təhlükəsiz, sağlam və layiqli olmasını təmin edir, işçilərin hamiləlik və ya analıqla əlaqədar ehtiyaclarının ödənilməsi Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən tənzimlənir.
5. Universitet şikayətlərin baxılmasında, intizam tədbirlərin yerinə yetirilməsində və əmək müqaviləsinə xitam verilməsində cinsi mənsubiyyət prinsipinin rəhbər tutulmasına yol vermir.

## SİYASƏTİN ƏSAS PRİNSİPLƏRİ

**Tələbələr üçün**

1. AzTU-da bütün tələbələr öz potensiallarını tam şəkildə reallaşdıra bilərlər, onların cinsi mənsubiyyəti təlim-tədrsi prosesinə heç bir təsir göstərmir və onlara qarşı bərabərhüquqlu münasibət təmin edilir.
2. Həm qız, həm də oğlan tələbələrin bir-birinə eyni dəyər vermələrinə və hər cəhətdən bərabər münasibət göstərmələrinə Universitetin müvafiq təşkilatları tərəfindən nəzarət olunur.
3. Qız tələbələri üçün kampus həyatında onların hörmət, şəxsi təhlükəsizlik və iqtisadi təhlükəsizlik hüquqlarının qorunması təmin olunur.

4. Universitet tələbələrdə düzgün münasibətin və davranışın, sosial məsuliyyətin, empatiya və həssaslığın, bərabərhüquqlu münasibətlərin formalaşmasına diqqət yetirir.
5. Universitetdə cinsdən asılı olmayaraq bütün tələbələr üçün sosial və mənəvi cəhətdən rahat öyrənmə mühiti təmin edilir və mövcud olan imkanlar bütün tələbələr üçün tam bərabər şəkildə əlçatandır.
6. Universitetdə şikayətlərin baxılmasında, inzibati və intizam tədbirlərin yerinə yetirilməsində cinsi mənsubiyyət prinsipinin rəhbər tutulmasına yol verilmir.

**Xülasə**

Bu gender siyasətində müəyyən edilmiş prinsiplər Azərbaycan Texniki Universitetinin bütün işçilərinin və tələbələrinin cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarını aradan qaldırmaqla, kişi və qadınlara ictimai həyatın siyasi, iqtisadi, sosial, mədəni və digər sahələrində bərabər imkanlar yaratmaqla gender bərabərliyinin təmin edilməsindən ibarətdir. Biz insan hüquqlarına hörmət edir, kişi və qadınlar üçün bərabər imkanları təmin edirik. Prosesi nəzərdə saxlamaq və gender siyasətlərinin təsirini izləmək üçün Azərbaycan Texniki Universitetində işçi və tələbə qadınlarla bağlı mütəmadi hesabatlar aparılacaqdır. Bundan sonra qadınların az təmsil olunduğu ixtisaslarda onların sayının artıtılması və qadınlar üçün xüsusi proqramların təşkil olunması (mentorluq, sahibkarlıq və s.) istiqamətlərində işlər aparılacaqdır.